Ədəbiyyat QƏZETİ

30 may 2025-ci il 25

# Adil ŞİRİN-70



İstedadlı şair Adil Şirini 70 illik yubileyi münasibətilə təbrik edirik.

Adil Şirin (Adil Hümbət oğlu Şirinov) 1955-ci il iyunun 1-də Laçın rayonunun Ərikli kəndində anadan olub. 1972-ci ildə Kürdhacı kənd orta məktəbini, 1973-1978-ci illərdə Xankəndi Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib. 1978-1984-cü illərdə orta məktəbdə müəllim işləyib.

1985-ci ildə Bakı şəhərinə köçüb, bir çox qəzet və jurnallarda müxtəlif vəzifələrdə çalışıb. "Sovet kəndi" qəzetində korrektor, müxbir, şöbə müdiri, sonralar "Həyat", "Bərəkət" qəzetlərində şöbə müdiri, "Vətən" Cəmiyyətinin "Odlar yurdu" qəzetində məsul katib, "Ədalət", "Azad Azərbaycan" qəzetlərində şöbə müdiri vəzifələrində çalısıb. 1992-ci ildə könüllü olaraq Azərbaycan Ordusuna qoşulub. Elə həmin il Müdafiə Nazirliyinin təsis etdiyi "Hərbi bilik" jurnalına məsul katib təyin olunub. Qarabağ cəbhəsinin ən qaynar döyüş nöqtələrindən məqalələr, reportajlar hazırlayıb. Hazırda ehtiyyatda olan zabitdir.

Adil Şirinin şeirləri hələ orta məktəbdə oxuyarkən rayon qəzetində, eləcə də mərkəzi qəzetlərdə dərc olunub. Şair Əliağa Kürçaylı 1972-ci ildə "Azərbaycan gəncləri" qəzetində Adilin şeirlərinə uğurlu yol yazıb.

Rusiya Yazıçılar Birliyi və Ukrayna Yazıçılar Birliyinin üzvüdür. 2013-cü ildə Xüsusi Təqaüd Fondunun təqaüdünə layiq görülüb. Nazim Hikmət, Rəsul Rza və Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat mükafatlarının laureatıdır. Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri doktorudur. Adil Şirinin müxtəlif illərdə çap olunmuş "Nur üzlüm", "Bədirlənmiş ay", "Laçın şikəstəsi" kimi şeir kitablarını oxucular maraqla qarşılayıblar. Yaradıcılığına görə Rusiya Yazıçılar Birliyinin "A.S.Puşkin adına Qızıl Medal"ı ilə təltif olunub. Şeir və poemaları bir çox dünya xalqlarının dillərinə tərcümə edilib. Türkiyədə "Dolunay", "Könlüm durna köçündə", Rusiyada "Polnolunie", Ukraynada "Lunnuie vospominaniya" kimi şeir və poemalardan ibarət kitabları nəşr olunub.

Adil Şirini bir daha yubileyi münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**